**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

## "Azərbaycanda təhsil sektorunun və biznesin qarşılıqlı əlaqələrinin inkişaf perspektivləri"

**No: 09/35/114**
**14.10.2009**

Azərbaycan – Türkiyə İş Adamları Birliyi (ATİB) Azərbaycanda fəaliyyət göstərən iş adamlarının iqtisadi və sosial sahədə informasiya ilə təminatını yaxşılaşdırılmaq, eləcə də ölkənin inkişaf prioritetlərinə uyğun fəaliyyətlərinə dəstək vermək məqsədi ilə 2008-ci ildən müvafiq tədqiqat proqramı həyata keçirməkdədir. Bu proqram çərçivəsində "Azərbaycanda təhsil sektorunun və biznesin qarşılıqlı əlaqələrinin inkişaf perspektivləri" mövzusunda hazırlanmış tədqiqatın 14 oktyabr 2009-cu ildə ATİB ofisində ictimai müzakirəsi təşkil edilmişdir.

Layihənin əsas məqsədi Azərbaycanda mövcud olan təhsil sisteminin vəziyyətini ətraflı qiymətləndirmək, onun üstün və çatışmayan cəhətlərinə nəzər yetirmək, inkişaf meyllərini nəzərə almaqla təkmilləşmə, o cümlədən biznes əməkdaşlığı istiqamətində tövsiyələri irəli sürməkdən ibarətdir.

Layihənin icrası zamanı Azərbaycanın təhsil sisteminin inkişafı istiqamətində tədqiqatlar aparmış və öz peşəkar mülahizələrini bildirmiş təşkilat və mütəxəssislərə, təhsil müəssisələri və idarəetmə orqanlarının rəhbərləri, təcrübəli professor-müəllim heyəti nümayəndələri, habelə ictimai təşkilatların təmsilçiləri və özəl sahibkarlıqla məşğul olan şəxslərlə görüşlər keçirilmişdir.

Sözügedən Hesabatın 1-ci fəsli Azərbaycan təhsil sisteminin problemli-situativ təhlili haqqında məlumat verir. Hesabatın 2-ci fəslində təhsildə sahibkarlıq fəaliyyətinin yeri və rolu təhlil edilir. Hesabatın 3-cü fəslində Azərbaycanda təhsilin modernləşmə islahatları araşdırılmışdır. Burada açılmış yeni ixtisaslar (sosiologiya, psixologiya, menecment, dövlət idarəçiliyi və s.) və fənlərin tədrisində milli elmi məktəbin yaranması və bu kimi aktual məsələlər nəzərdən keçirilmişdir. Hesabatın 4-cü fəslində ölkə və region iqtisadiyyatının kadr tələbatının milli peşə təhsili tərəfindən qarşılanması məsələsi təhlil edilmiş və qiymətləndirilmişdir. Dövlət və qeyri dövlət təhsilin fəaliyyət təcrübəsi və perspektivləri inkişafı istiqamətində tövsiyələr Fəsil 5-də verilmişdir. Hesabatda həmçinin müxtəlif təhsil pillələrində daha keyfiyyətli təhsil modellərinin əsaslandırılması, həmçinin iş adamları və biznes qruplarının təhsilin müxtəlif pillələrində təşkilati-maliyyə təşəbbüsləri haqqında da məlumat verilmişdir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**